***Samirə QASIMOVA*** *

# 1918-ci il QUBA QƏZASINDA AZƏRBAYCANLILARIN SOYQIRIMI

**Açar sözlər:** Milli qırğın, Quba, erməni silahlı dəstələri, Bakı Soveti, terror, maddi-mənəvi sərvətlər.

**Key words:** National genoside, Guba, armenian armed formation, Soviet of Baku, terror, material and moral values.

**Ключевые слова:** Национальный геноцид, Губа, армянские вооруженные формирования, Бакинский Совет, террор, материальные и моральные ценности.

XX əsr Azərbaycan tarixində əlamətdar hadisələrlə yanaşı, təssüflər olsun ki, qanlı faciələr və soyqırımlar da baş vermişdir. Müxtəlif dövrlərdə yaşanan bütün bu faciələrin əsas səbəbi erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddiaları olmuşdur. Ən başlıcası isə Çarizmin Cənubi Qafqazda işğalçı fəaliyyəti ermənilərin Azərbaycan torpaqlarında dövlət qurmaq iddiasını fəallaşdırdı. Belə ki, II Rus-İran müharibəsinin sonunda bağlanmış Türkmənçay müqaviləsinə (10 fevral 1828) əsasən Rusiyanın imperiya siyasətinə uyğun olaraq, şimali Azərbaycan çar Rusiyası tərəfindən işğal olunduqdan sonra onun bir çox şəhərlərində Türkiyədən və İrandan köçürülmüş ermənilər məqsədyönlü şəkildə yerləşdirilməyə başlandı. Bu dövrdə çarizm Azərbaycanda müstəmləkəçilik siyasətini işğal etdikləri torpaqlarda qeyri-müsəlman millətlərini yerləşdirməklə həyata keçirməyə çalışırdı [3,19]. Azərbaycan torpaqları hesabına yaradılmış "erməni vilayəti"ndə rusların bilavasitə köməyi sayəsində məskunlaşdırılan ermənilər bütün Qafqaz ərazisində tarixin təhrif olunmasında, azərbaycanlılara qarşı soyqırımın həyata keçirilməsinə fəal rol oynadılar [10, 63-64].

Havadarların yaxından köməyi və göstərişi ilə günü-gündən iştah artmağa başlayan ermənilər hətta XIX əsrin sonlarına yaxın "Böyük Ermənistan" yaratmaq xülyasına düşdülər. Ən nəhayət, onlar öz mənfur, iyrənc niyyətlərini həyata keçirmək üçün 1891-ci ildə "Daşnaksütyun" adlı terror təşkilatı yaratdılar. Bir sıra xarici dövlətlər tərəfindən maliyyələşdirilən bu terror təşkilatına dünyanın müxtəlif yerlərinə səpələnmiş millətçi ermənilər də cəlb olundular. Bu mənfur təşkilat həmin vaxtdan "dənizdən-dənizə" "Böyük Ermənistan" yaratmaq uğrunda neçə-neçə planlar cızdı, qərarlar qəbul etdi, cinayətlər törətdi. "Böyük Ermənistan" yaratmaq xülyası, ermənilərin fikrincə, iki istiqamətdə həyata keçirilməlidir. Birincisi, ermənilərin göz dikdiyi türk torpaqlarının, o cümlədən də, Azərbaycan ərazilərinin müharibə, yaxud dinc yolla işğal edilib Ermənistana qatılması siyasətidir. İkincisi, buna nail olmadıqda milli qırğın törətmək yolu ilə türk xalqlarına, eləcə də azərbaycanlılara qarşı soyqırım siyasətini həyata keçirməkdən ibarətdir" [7, 6]. Nəhayət, 1917-ci ildə Rusiya imperiyasının süqutu, daha sonra bolşeviklərin Rusiyada hakimiyyətə gəlməsi ilə erməni millətçilərinin mifik "böyük Ermənistan" ideyasını gerçəkləşdirməsi üçün şərait yaranmış oldu.

* **Samirə Qasimova** - Dos.əv. Azərbaycan Dövlət Aqrar Universiteti





Birinci dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı [16,10]. Birinci Dünya müharibəsi illərində (1914-1918) böyük dövlətlərdən yardım alan erməni-daşnak silahlı dəstələri, qabaqcadan hazırlanmış plana uyğun olaraq, bütün Azərbaycan torpaqlarında yerli türk-müsəlman əhaliyə qarşı yenidən dəhşətli soyqırımları həyata keçirdilər [14,7].

"Daşnaksutyun" partiyası və erməni Milli Şurası bolşeviklərlə öz səylərini birləşdirməyə başladı. Bolşeviklər Bakı və Azərbaycanı Sovet Rusiyasının, daşnaklar isə mifik "Böyük Ermənistan"nın tərkib hissəsi kimi görürdülər. Onların son məqsədləri fərqlənsə də, bu mərhələdə yalnız bir rəqibləri var idi - öz milli partiyalarını, ilk növbədə "Müsavat"ı dəstəkləyən yerli azərbaycanlı əhali. Siyasi rəqibin məhv edilməsi üçün şüurlu surətdə etnik təmizləmə kursu seçildi. Bakı Soveti Bakı quberniyasında azərbaycanlıların məhv edilməsini nəzərdə tutan cinayətkar planın həyata keçirilməsinə başladı. Onun tabeçiliyində əsasən ermənilərdən təşkil edilən "Qırmızı qvardiya" adlı qoşun Milli qırğına rəhbərlik məqsədilə martın 30-da Bakı Soveti nəzdində İnqilabi Müdafiə Komitəsi adlı qurum yaradıldı [5, 11-12].

Erməni silahlı qüvvələri tərəfindən dinc azərbaycanlı əhaliyə qarşı törədilən kütləvi qırğınların zirvə nöqtəsi 1918-ci ilin martında oldu. Martın 30-da axşam saat 5-də Bakıda ilk atəş açıldı. Bakı Sovetinin qüvvələri ilə yanaşı, qırğın başlananadək özlərinin bitərəfliyini elan etmiş "Daşnaksütyun" və Erməni Milli Şurası, o cümlədən erməni kilsəsi Bakı Sovetini müdafiə etdi. Nəinki silahlı erməni əsgərləri, habelə erməni ziyalıları da Bakı Soveti tərəfindən döyüşə qatıldılar. Şaumyan bu hadisə ilə bağlı yazırdı: "Bizim süvari dəstəyə ilk silahlı hücum cəhdindən bəhanə kimi istifadə etdik və bütün cəbhəboyu hücuma keçdik. Bizim artıq 6 min nəfərədək silahlı qüvvəmiz vardı. Həmçinin "Daşnaksütyun"un 3-4 minə qədər milli hissələri də bizim sərəncamımızda idi. "Daşnaksütyun"un iştirakı vətəndaş müharibəsinə milli qırğın xarakteri verdi və bundan qaçmaq mümkün deyildi. Biz buna şüurlu olaraq getdik. Əgər onlar Bakıda qələbə qazansaydılar, şəhər Azərbaycanın paytaxtı elan edilərdi" [12, 4].

St.Şaumyanın ermənilərlə birlikdə ittifaqda cızdığı gizli plana görə, Azərbaycan torpaqlarında erməni dövlətini yaratmaq məqsədilə, Azərbaycan əhalisindən daha çox qırmaq, qorxutmaq, qarət etmək və sonra boşalmış ərazilərdə erməniləri yerləşdirməli idilər. Bu proses, demək olar ki, Azərbaycanın bütün torpaqlarında eyni bir vaxtda baş vermişdi [1, 83]. Bolşevik adı ilə pərdələnən S.Şaumyan Azərbaycan türkünə qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətini çox hiyləgərcəsinə bolşevizm bayrağı altında, həm də çox qəddarcasına həyata keçirdi. Məhz onun təşəbbüsü ilə azğınlaşmış erməni-daşnak faşistlərinin Azərbaycan türkünə qarşı 1914-1920-ci illərdə apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin II mərhələsi 1918-ci ildə daha geniş miqyas alır və ötən illərdəkindən öz amansızlığı ilə fərqlənirdi. Əlbəttə, S.Şaumyanın məqsədi Bakıda sovet hakimiyyəti qurmaq, onu yaşatmaq deyildi. Bütöv Azərbaycanı milli qırğın meydanına çevirmək, Azərbaycan türkünün qətliamını törətmək, yurd-yuvalarından didərgin salmaq, başlıcası isə Azərbaycanın varlığı uğrunda mübarizəyə qalxan müsavat hökumətinin diqqətini Qərbi Azərbaycandan yayındırmaq idi. Əfsuslar olsun ki, S.Şaumyanın ustalıqla oynadığı bu çirkin oyunları, bədxah niyyətləri, şeytanə gəzişmələri baş tutdu. Şamaxı, Quba, Salyan, Lənkəran, Ərəş, Nuxa qəzalarında, Hacıqabul, Kürdəmir, Göyçay nahiyələrində qətliamlar törətdi. Təkcə Quba qəzasında erməni-daşnak faşistləri bir dəfə deyil, üç dəfə qırğına ayaq verdilər [9, 171].

Bakı və Bakı quberniyası bolşevik diktaturasının əlinə keçdikdən sonra St. Şaumyanın tapşırığı ilə Qubaya David Gelovaninin başçılığı altında 187 nəfərlik silahlı əsgər dəstəsi göndərilmişdi. Aprelin 23-də bolşevik partiyasının nümayəndəsi David Qelovani 187 nəfərlik hərbi dəstəsi ilə birlikdə Quba şəhərinə gələrək orada sovet hakimiyyəti elan etdi və özünü Qubanın komissarı olduğunu bəyan edərək əhalidən tələb etdi ki, sovet hökumətini tanısınlar [13, 107]. 1918-ci ildə qırmızıqvardiyaçı olmuş Q.Nağıyev xatirəsində "Qubada sovet hakimiyyəti qurmaq üçün Şaumyan və Caparidzenin də daxil olduğu inqilabi komitənin tapşırığı ilə Qubaya gəldiklərini qeyd etmişdir. Nağıyevin yazdığına görə "onlar (yəni M.Çurayev, L.Qoqoberidze, Qelovani və Q.Nağıyev) Qubaya yola düşməmişdən qabaq Mikoyan A.İ. və Caparidze tərəfindən lazım olan sənədlərlə təmin edildilər". D.Gelovani yazırdı ki, "... Qubaya gələn dəstənin içərisində "... 12 nəfər erməni, bir neçə nəfər yəhudi, qalanları isə ruslar idi. Dəstədə familiyasını bilmədiyim ermənінin rəhbərliyi altında 2 pulemyot da var idi". "Onlar buradan geri çəkilərkən Ağacanyanın dəstəsi Bulvar küçəsini yandırmış və Bazar küçəsində 16 nəfəri, Komendant küçəsində 7 nəfəri, şəhərin kənarında, köhnə həbsxana adlanan yerdə isə 35 nəfəri qətlə yetirmişdilər" [2, 12-13].

Lakin, yeni hakimiyyəti qəbul etməyən ətraf kəndlərin əhalisi hadisələrə müdaxilə edir. Qubada sovet hakimiyyətinin 9-cu günü şəhərin yəhudi məhəlləsi





tərəfindən, əsasən ləzgilərdən ibarət dəstələrin silahlı hücumu başlanır. Gelovaniyə dəstək olaraq Xaçmazdan ermənilərdən ibarət olan 2 topla birlikdə Ağacanyanın rəhbərlik etdiyi 150 nəfərlik hərbi dəstə gəlir. Üç gün davam edən şiddətli döyüşlərdən sonra ləzgi dəstələri bolşevikləri Qubadan qovub çıxarırlar [7, 74].

1918-ci il mayın 1-də Bakı XKS Qubaya azərbaycanlıların qatı düşməni, daşnak Hamazaspı və onun köməkçisi Nikolayın komandanlığı altında, tərkibi ermənilərdən ibarət, təxminən iki min nəfərlik dəstə göndərmişdi. Bu dəstə azərbaycanlılara qarşı özünün amansızlığı ilə Cəza dəstəsi adını almışdı. Hamazasp qubalılar qarşısındakı çıxışında - mən erməni xalqının qəhrəmanıyam və onun maraqlarının müdafiəçisiyəm. Mən buraya cəza dəstəsi ilə göndərilmişəm ki, iki həftə bundan əvvəl burada öldürülmüş ermənilərin qisasını alım. Mən Sovet hakimiyyətini qurmaq və qayda-qanun yaratmaq üçün deyil, öldürülmüş ermənilərin hayıfını sizdən almaq üçün göndərilmişəm. Mənə əmr olunub ki, dəniz (Xəzər) sahillərindən Şah Dağa (Dağıstanda dağ) qədər bütün müsəlmanları məhv edim və evlərinizi isə yerlə bir edim...deməsi bir daha göstərir ki, ermənilərin və eləcə də, Bakı XKS sədri Şaumyanın əsas məqsədi, heç də yerlərdə Sovet hakimiyyətini qurmaq deyil, bolşevik bayrağı altında azərbaycanlıları daha çox qırmaq, onları qorxutmaq, gələcək erməni dövləti üçün geniş ərazilər əldə etmək olmuşdu. David Gelovaninin Fövqəladə İstintaq Komissiyasına verdiyi ifadəsinə görə, Hamazaspın silahlı dəstəsi siyasi məqsəd üçün deyil, (yəni burada Sovet hakimiyyətini qurmaq üçün deyil – müəl.) sadəcə müsəlman xalqından intiqam almaq məqsədilə —Daşnaksütyun partiyası tərəfindən göndərilmişdi [1, 80].

Hamazaspın quldur dəstəsi istər Qubaya gələrkən yolboyu, istər şəhərə girərkən, istərsə də mahalın digər ərazilərində vəhşi hərəkətlər etmişlər. Ermənilər qarşılarına çıxan kəndləri, obaları, yurd yerlərini dağıdır, yandırır, rastlaşdıqları kişiləri, qadınları, uşaqları qəddarcasına qətlə yetirirdilər. Erməni silahlı quldur dəstələri öz qəddarlığı ilə seçilən qatı cinayətkar Hamazaspın göstərişi ilə Quba qəzasında görünməmiş vəhşiliklər törətmiş, müsəlman əhalini diri-diri 4-7 metr dərinliyində olan quyulara dolduraraq başlarına daşlar yağdırmış və öldürmüşlər. 1918-ci ildə Quba qəzasında törədilmiş cinayətlər barədə konkret və real faktlara malik olan Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbuat xidmətinin 2010-cu il aprelin 22-də elan etdiyi məlumatda deyilir ki, 1918-ci il mayın 1-də səhər vaxtı Hamazapsın rəhbərlik etdiyi cəza dəstələri Quba şəhərini mühasirəyə alaraq şəhəri top, pulemyot və digər atıcı silahlardan atəşə tutduqdan sonra müqavimətsiz şəhərə daxil olmuş, müsəlmanlara qarşı hər cür zorakı hərəkətə yol vermişdir. Ermənilər küçədə qarşılarına çıxan dinc əhalini, o cümlədən uşaqları və qadınlarıxəncərlə, tüfənglə qətlə yetirmiş, evlərə soxularaq bütöv ailəni qırmış, uşaqların başlarını kəsmiş, qadın və qızları zorladı [15, 5].

Quba şəhər rəisi Ə.Əlibəyov isə öz ifadəsində bildirirdi ki, Zorakılıqlar, qətillər və qarətlər doqquz gün davam etdi. Mən yenidən Hamazaspın yanına gedərək heç olmazsa ölülərin cəsədlərinin yığılaraq torpağa tapşırılmasına icazə verməyi xahiş etdim. Adı çəkilən Hartun Hayrapetov mənim iştirakımla ona məruzə etdi ki, (məruzə zamanı mən də iştirak edirdim və erməni dilini bildiyim üçün nə dediyini başa düşürdüm) şəhərdən Nikolay pulu ilə nəğdi 3 milyon manat yığılıb, 6 milyon manatlıq qızıl və qızıl qadın bəzək əşyaları toplanıb, hər öldürülmüş erməni üçün 200 müsəlman öldürülmüş, hər sorlanmış erməni arvadı üçün 70 müsəlman arvadı və qızı zorlanmış, ermənilərdən müsadirə olunmuş əşyalar geri alınmış, 90-na yaxın ev yandırılmışdır. Hayrapetov məruzəsini belə yekunlaşdırdı: "İş tamamlanmışdır, artıq bəsdir, gedək [6, 101].

29 aprel 1918-ci ildə Hamazaspın başçılıq etdiyi daşnak terror birləşmələri Quba qəzasının Şıxlar kəndinə basqın edirlər. Əhali güllələbaran edilir. 40-dan çox uşağı dəmir yolu stansiyasındakı Xan çinarların budaqlarından asırlar [9, 22]. Ermənilərin 1918-ci ildə törpətdiyi soyqırıma bu günkü Quba məzarlığı, Şamaxıdakı Cümə məscidi canlı şahiddir [7,31].

Bütünlükdə Quba mahalında daşnaklar 122 kəndi dağıdıb yandırmış, viran qoymuşlar. Həmin yaşayış məntəqələri bunlardır: Dəvəçi, Sədan, Çarxana, Dərə Zarat, Saqolcan, Eynibulaq, Ağasıbəyli, Kolanı, Uqah, Nardərə, Siyəzən, Rəhimli, Surra, Qaraqaşlı, Aşağı, Quşçu, Sarvan, Əmirxanlı, Qarabulağ, Aygünlü, Qaraqurdlu, Qaraçı, Nərəcan, Xudat, Aşağı Buduq, Xaçmaz, Təzə və Köhnə Xaçmaz, Mürşüd oba, Xaspolad oba, Babalı, Mehraliqışlaq, Bəyqışlaq, Canaxır, Qobuqırağı, Mürsəlliqışlaq, Çarxı, Xırdaoymaq, Qaraçallı, Yergüç, Hülövlü, Həsən Əfəndi, Ərəb, Qarabağlı, Çaxmaqlı, Ciğatay, İlxıçı, Avaran, Xuray, Çiləkir, Həzrə, Əcəxür, Düztahir, Həsənqala, Urva, Aşağıəlik, Aşağıləkər, Köhnə Xudat, Əvəcüğ, Zeyxur, Quzuqışlaq, Kədəzeyxur, Yasab, Nügədi, Amsar, İqrığ, Əski İqrığ, Daşlıyataq, Təkyə, Qımılqışlaq, Əlibəyqışlaq, Əniq, Aşağı Xuc, Alpan, Digah, Zizik, Mirzəməmmədkənd, Üçkün, Hacıqaib, Susay, Xucbala, Cimi, Rustov, Yenikənd, Küləzi, Cici, Söhüb, Nöhürdüzü, Zərqova, Afurca, Xəlfələr, Cök, Qrızdəhnə, Nabran və s. O vaxtlar ermənilərin Quba mahalında yandırdıqları bir sıra kəndlər – Əlixanlı, Ərəbəlməmməd, Ərəb-Xəmnə, Qulamlar, But-but, Tura, Əzizlər, Bişbişi, Aşalı, Küləşqışlaq, Yusifqışlaq, Dəndəlik, Xızı Fəriz, Ərəb Sofu, Qərəblər, Əbilə kəndləri büsbütün dağıdılmış, heç sonralar dirçələ bilməmişdir [4,98].

Ümumilikdə, Daşnaksütyun Partiyası tərəfindən 1917-ci ildə planlaşdırılan, bolşeviklərlə birgə həyata keçirilən 31 mart qırğını Azərbaycan xalqının milliмənəvi dəyərlərinə, tarixi yaddaşına, ziyalılarına qarşı mənəvi soyqırım idi. Azərbaycan xalqının mədəniyyətinə vurulan bu ağır yaraları o dövrün qələm sahibləri "mədəni zərbə" adlandırırdılar [17,5]. Şimali Azərbaycanın bütün bölgələrində, o





cümlədən Bakı, Şamaxı, Göyçay, Kürdəmir, Quba, Salyan, Lənkəran və başqa yerlərdə türk-müsəlman əhali əvvəlcədən düşünülmüş plan əsasında kütləvi surətdə ucdantutma məhv edildi, xalqın min illər boyunca yaratdığı maddi və mənəvi sərvətlər məhv və talan olundu [8,8]. Təssüflər olsun ki, bütün bu törədilən cinayətlərə görə ermənilər heç bir məsuliyyət daşımamış və əksinə, həmin dövrdə hakimiyyətdə olan Bakı Xalq Komissarları Soveti tərəfindən müdafiə olunmuşdular [2, 21-22].

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması onların məkirli məqsədlərini ürəklərində qoydu. 1918-ci ilin iyulunda Azərbaycan hökuməti erməni daşnaqlarının Cənubi Qafqaz üzrə törətdikləri vəhşilikləri və cinayətləri üzə çıxarmaq üçün Fövqəladə İstintaq Komissiyasını yaratdılar. Elə həmin ilin noyabrında göstərilən məruzə əsasında Fövqəladə Təhqiqat Komissayası, komissiyanın sədri Ə.Xasməmmədovun və komissayanın digər üzvlərinin imzasaı ilə yuxarıda göstərilən şəxslərə qarşı cinayət işi qaldırılması haqqında qərar qəbul etmişdir. Onların işləri 1920-ci il yanvarın 29-da Bakı dairə məhkəməsinin prokurorluğuna göndərilmişdir [6,104].

Lakin, Sovet hakimiyyəti illərində 1918-ci il hadisələrinin çoxu qəsdən unutduruldu. Şükürlər olsun ki, müstəqillik qazandıqdan sonra Azərbyacan xalqı öz tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq, tarixi həqiqətləri üzə çıxarmaq imkanı əldə etmişdir. Məhz Ümummilli Lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanında bu hadisələrə siyasi qiymət verilmiş və ilk dəfə olaraq azərbaycanlıların ermənilər tərəfindən soyqırıma məruz qaldıqları rəsmi surətdə bəyan edilmişdir [18]. Eyni zamanda bu sənədin ermənilər və onların tarixi havadarlarının yurdumuzun və yurddaşlarımızın başına gətirdikləri müsibətlərin həm ölkə, həm də beynəlxalq ictimaiyyətin mühakiməsinə çıxarılmasında rolu böyük və əhəmiyyətlidir

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Abışov V.Ş. Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər). Bakı, Nurlan, 2005, 176 s.
2. Abışov V.Ş. Quba qəzasında Azərbaycan xalqına qarşı soyqırımı. Bakı: "Elm", 2017, 96 s.
3. Arzumanlı V., Həbiboğlu V., Muxtarov K., 1918-ci il qırğınları. Tarixi araşdırmalar B.: "Öyrətmən" 1995, 90 səh.
4. Arzumanlı V, Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: "Qartal", 1998. 280 səh.
5. Ağayev Y., Əhmədov S. İstiqlal yürüşü -1918. Bakı, "Altun Kitab", 2009, 416 səh.

6. Azərbaycan xalqına qarşı 1918 ci il soyqırımları. Bakı: Azərbaycan Tarix iləri İctimai Birliyi, 2016, 408 səh.
7. Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasəti və onun acı nəticələri. 1918-ci il Mart soyqırımının ildönümü münasibətilə keçirilən elmi-praktik konfransın materialları. Bakı 2017, 180 səh.
8. Erməni xəyanəti: Terror, soyqırım və deportasiya siyasəti. Bakı – 2009, 121 səh.
9. Əroğul Ə. Ə. "Erməni-daşnak faşizmi və Azərbaycan" (bədii publisistika). Bakı, "Təhsil", 2007, 412 səh.
10. Hacıyev İ.M. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan – 2012, 193 səh.
11. Həbiboğlu V. "Böyük Ermənistan" yaratmaq xülyası. "Respublika" qəzeti, 3 aprel, 1999.
12. Qasımlı M. 29 mart 2019-cu il, Xalq qəzeti.
13. Seh-107. Qəhrəmanov N. I Dünya müharibəsində erməni amili. Bakı, "E.L." Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2008, 296 səh.
14. Mahmudov Y.M., Şükürov K.K. Qarabağ: Real tarix, faktlar, sənədlər. Bakı, "Təhsil", 2005, 380 səh.
15. Məmmədov N. Bakıda, Şamaxıda və Qubada 1918-ci il mart-aprel soyqırımı. Respublika". seh-5-2013.-30 mart.N 64, S.5.
16. Soyqırım cinayəti (Beynəlxalq aktlar, normativ sənədlər, müraciət və şərhlər toplusu). Bakı 2010, AZE Konsaltinq Qrup, Hüquqi İslahatlara Yardım Mərkəzi İB, 88 səh.
17. Vəliyev A. A. (Aşırlı), 31 mart soyqırımı: 1918-1920-ci illər mətbuatında. Bakı, "Elm və təhsil", 2011.100 səh.
18. http://heydaraliyev.preslib.az.

## GENOSIDE OF AZERBAIJANS IN GUBA ACCIDENT IN 1918
## SUMMARY

In the article deals about issue of the genocide committed by the armed forces of the armenians with the help of the Soviet of Baku in Guba against the Azerbaijani people in March-April in 1918. The Armenians skillfully took advantage of the revolution that took place in Russia in February and October in 1917 during the First World War, managed to realize their claims under the Bolshevik flag. Armenian armed forces mercilessly killed thousands of civilians in Guba, they robbed their property and burned their homes. The main objective of ethnic cleansing in Baku and its environs subjugate Azerbaijan, which is rich in natural resources to Soviet Russia. Dashnaks in turn, were trying to gain vast territories for the future of the State of Armenia.





## ГЕНОЦИД АЗЕРБАЙДЖАНЦЕВ В ГУБИНСКОМ УЕЗДЕ В 1918 ГОДУ
## РЕЗЮМЕ

В статье рассматривается вопрос о геноциде, совершённом вооруженными силами армян с помощью Бакинского Совета в Губе против азербайджанского народа в март - апреле 1918 года. Армяни умело воспользовавшись революцией происходившей в России в феврале и октябре 1917 года в период Первой мировой войны, удалось реализовать свои претензии под большевитским флагом. Армянские вооруженные отряды в Губинском уезде жестоко убили тысячами мирных жителей, ограбили их имущество и сожгли их дома. Основная цель этих преступлений проводённая этническую чистку в Баку и его окрестностях состояла в том, чтобы подчинить Азербайджан Советской Россией, который богат природными ресурсами. Дашнаки, свою очередь, пытались завоевать обширные территории территории для будущего армянского государства.